ədalət.-2017.-6 may.-S.4.

# HEYDƏR ƏLİYEV YOLU

**Azərbaycan insanının yaddaşında əbədi yaşamaq hüququ qazanmış tarixi şəxsiyyətlərdən biri olan Ümummilli Liderimizin doğum günü həm də ölkə həyatının bütün sahələrinin, eləcə də təhsil sahəsinin inkişafı, çiçəklənməsi ilə xatırlanır. Yəni özünün bütün fəaliyyətini, Azərbaycanın tanıdılmasına, təqdir və təbliğ olunmasına, həmçinin dünya dövlətləri sırasında öz elmi, iqtisadi və siyasi qüdrətiylə seçilməsinə həsr etmiş Ulu Öndərimiz həm zamanında, həm də bu gün bizə əsl nümunədir.**

Əgər tarixi keçmişə nəzər salsaq onda görərik ki, məhz Ümummilli liderimizin hakimiyyətə gəldiyi və Azərbaycanı idarə etdiyi hər iki dönəmdə Azərbaycan təhsili yenilənmiş, inkişaf etmək məramlı bir yolu tutmuşdur. Göstərilən diqqət və qayğı, xüsusilə Ulu Öndərimizin şəxsi təşəbbüsləri ilə Azərbaycan təhsili ön sıraya çıxmışdı. Ölkənin maddi sərvətlərinin verdiyi imkanlara söykənən Heydər Əliyev cənabları Azərbaycanın siyasi-iqtisadi qüdrətini təbliğatçısı, təşkilatçısı olan elmi kadrların da yetişməsində öz sözünü deyirdi. Məhz buna görə də təhsilə vəsaitlərin ayrılması, təhsil müəssisələrinin yenilənməsi, şaxələnməsi üçün hər cür şərait yaradırdı.

Biz arxada qalan illəri nəzərdən keçirərkən görürük ki, məhz Heydər Əlirza oğlu Əliyevin qayğısı ilə Azərbaycan gəncləri təkcə ölkə daxilində deyil, onun hüdudlarından kənarda da elmi biliklərə yiyələnmək imkanı qazanmışdılar. Ən ucqar kəndlərdən tutmuş paytaxt məktəblərinə qədər



kompüterləşdirmə, müasir avadanlıqlardan istifadə, təhsildə islahatlar və digər zəruri addımlar məhz Ulu Öndərimizin Azərbaycan təhsilinə qayğısının nümunəsidir. Sevindirici haldır ki, onun siyasi və iqtisadi kursunu uğurla davam etdirən Azərbaycan prezidenti cənab İlham Əliyev, həmçinin ölkənin vitse-prezidenti Mehriban xanım Əliyeva təhsilimizə həmişə xüsusi önəm verib, diqqət yetiribdi. Tiklib istifadəyə verilən, bərpa olunan məktəb binaları, müəllim kadrlarının hazırlanmasındakı yeniliklər, ümumiyyətlə, təhsildə gerçəkləşdirilən layihələr bizə imkan verir ki, övladlarımızı mükəmməl bir şəkildə gələcəyə hazırlayaq, onların savadlı, dünyagörüşlü olmasına nail olaq.

Bu gün əməli və xatirəsi bizim üçün əziz olan Ulu Önədrimizin Azərbaycan tarixindəki yeri və xidmətləri də təhsil işçiləri tərəfindən dəqiqliklə öyrənilir və böyüyən nəslə öyrədilir. Bu da bizim öz tariximizə, öz ümummilli liderimizə sevgimzin, inamımızın bariz göstəricisidir. Biz bilirik ki, Azərbaycanın bu günü kimi sabahı da Ulu Öndərimizin nurunda, ziyasında öz uğurlarına qovuşacaqdı. Azərbaycanın işıqlı sabahı adıyla bağlı olan Ulu Öndərimizin əməlləri də bizimlə birlikdə sabahlara gedəcəkdir.

*Çalışdığımız sahələrdə, xüsusilə işğal olunmuş rayonların böyüyən övladlarının biliklərə yiyələnməsində əməyi olan pedaqoji kollektivə bu gün onlara yaradılmış şərait üçün ölkə rəhbərliyinə daxilən bir minnətdarlıq hissi yaşayırlar. Məhz prezidentimizin və onun xanımının qayğısı nəticəsində bütün məcburi köçkün övladları təhsilə cəlb olunublar, biliklərə yiyələniblər. Sevindirici haldır ki, hər il ali təhsil müəssisələrinə cəlb olunan uşaqlar arasında köçkün övladlarının sayı artır. Bu da təhsilimizə Heydər Əliyev qayğısının əyani bir nümunəsidir. Biz həmişə onu düşünür, onun əməllərini həyatımızda gerçəkləşdirir və onun göstərdiyi yolla irəliyə gedirik. Bu yol Azərbaycanın gələcəyidir, bu yol Heydər Əliyev yoludur!*

**Elmira Şükürova,**
**Kəlbəcər rayon Təhsil Şöbəsinin müdiri**